Müşfiq Abbasov

# ŞEYTANIN SİMASI

*detektiv roman*

*Real hadisələr əsasında qələmə alınıb*

**İKİNCİ NƏŞR**

QANUN NƏŞRİYYATI

Tanrı insanı yaratdı, ona şüur verib zamanla sınağa çəkdi. Malı, canı, övladı və nəfsi ilə imtahan edib inancının səmimiliyini yoxladı.

Çoxları bu hikməti dərk etməyi bacarmadı. Bəlkə də bu səbəbdən yer üzündə ən idarəolunmaz varlıq olan insan Onun nəzərində nankor və zalımdır. Amma O, mərhəmət göstərib yaratdığı ən ali varlığın günahlarını dəfələrlə bağışladı, həqiqət yoluna qayıtması üçün səbir nümayiş etdirdi. Nəfsinə yenilən insan isə bunu anlamadı, səhv üzərinə yenidən səhvlər etdi. Sözü ilə əməli bir-birinə qətiyyən uyğun gəlmədi, dilində dua olanlar qəlbində başqa şey düşündülər. Şeytan Adəm övladını istədiyi kimi idarə edib yalan və boş vədlərlə onu çaşdırdı. Nankor insan pis əməllərdən çəkinmədən və qorxmadan fani dünyada yaşamağa davam etdi. O isə hələ də gözləyir. Axı, yoxdan var edəndir, rəhmli olmaqla bərabər, həm də səbir sahibidir...

Dinimizi parçalayıb araya nifaq salanlar, müqəddəs kitabımız olan "Qurani-Kərim"i istədiyi kimi təhrif edənlər, Allaha şərik qoşanlar, Şeytana sitayiş edənlər, yetim malı yeyənlər, riyakarlar, nankorlar, xəyanətkarlar və ən əsası məzluma zülm edənlər, sadəcə qorxun! Allahın əzabı şiddətli olacaq...

*Müşfiq Abbasov*

*Tanıdığım ən fədakar və heyrətamiz*
*qadına – həyat yoldaşıma ithaf edirəm!*

## MÜƏLLİFDƏN

Əziz oxucular, bu roman sizinlə üçüncü görüşümdür.

"-4" (Mənfi 4) və "Qan haqqı" əsərlərimin yaratdığı maraq və həyəcanın, bu romanı oxuyanda, daha da artacağına ümid edirəm.

Əvvəlki romanlarımdan fərqli tərzdə qələmə aldığım, kəskin süjetli "Şeytanın siması"nı çox çətin şərtlər altında – cəzaçəkmə müəssisəsində ərsəyə gətirmişəm. Sizlər üçün yazıb-yaratmaq istəyimin qarşısını Tanrıdan başqa heç kim ala bilməz. Çünki Allahın insana bəxş etdiyi yaradıcı güc qarşısıalınmazdır və mütləq üzə çıxır.

Əgər detektiv yazıçı olaraq istedadım varsa və bunu əsərlərimdə sizlərə göstərə bilirəmsə, çox xoşbəxtəm.

Roman haqqında geniş məlumat vermək istəmirəm. Düşünürəm ki, bunun sirli qalması, sizin əsərə marağınızı daha da artıracaq.

Romanda hadisələr vahid süjet xətti üzrə cərəyan edir. Baş verənlər real hadisələrə əsaslanır. Bəzi hissələrdə qəhrəmanların yaşadıqları öz dillərindən

nəql edilir. Bu da sizə romandakı hadisələrin mərkəzində olmaq duyğusu yaşadacaq. Ən ağır cinayətin qurbanının keçirdiyi hisslər isə ömürlük xatirənizdə qalacaq.

Romandakı Allaha inamla İblis arasındakı mübarizənin sonu da çox maraqlıdır. Düşdüyü çətin şəraitdə Allahdan üz döndərib Şeytana uyan cinayətkar romanın əsas qəhrəmanlarından biridir. Onun iyrənc hərəkətləri dərin nifrətinizi qazanacaq.

Romanın qəhrəmanlarının prototiplərindən bəziləri bu gün də yaşayır.

"Şeytanın sima"sı Azərbaycan ədəbiyyatında zorlama cinayətindən bəhs edən ilk irihəcimli detektiv-psixoloji roman sayıla bilər.

“Allah ona (Şeytana) lənət etdi. Rəhmətindən kənar edib dərgahından qovdu. O isə dedi: “Əlbəttə, mən Sənin bəndələrindən müəyyən bir qismini ələ alacağam. Onları hökmən (doğru yoldan) sapdıracaq, xülyalara salacaq və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm”.

Allahı atıb Şeytanı özünə dost tutan şəxs əlbəttə, açıq-aşkar ziyana uğramışdır. Şeytan onlara vədlər verir, ürəklərində arzular oyadır. Lakin Şeytan onlara yalnız yalan vədlər verir. Onların yeri Cəhənnəmdir və ordan xilas olmağa çarə tapmazlar”.

*(Ən-Nisa surəsi, Qurani-Kərim).*

## PROLOQ

– Ana, ay ana, həyətdə dostlarım məni çağırır. Mən gedirəm.

– Əynini qalın geyin, hava tutulub, yağış yağacaq, sənə soyuq olar.

– Yaxşı, geyinirəm.

Doqquz yaşlı uşaq giriş qapısının yanındakı paltar şkafına tərəf yüyürüb qapısını açdı, su keçirməyən göy rəngli gödəkçəsini götürüb bir göz qırpımında əyninə keçirtdi. Atasının ad gününə aldığı telefonu cibinə qoydu, sağ tərəfdəki su dispensirindən isti su süzüb bir neçə qurtum içdi. Ona yaxınlaşan anası başını mehribancasına sığalladı. Atasının saçlarına oxşayan qara cod saçları uzanıb balaca qulaqlarının üstünü örtmüşdü. Bir neçə gündən sonra əri Bakıya qayıtmalı idi. Həmin vaxt özü bu dəcəlin saçlarını qaydaya saldıracaqdı. Uşaq atası ilə dükanlara, alış-verişə getməyi xoşladığı kimi bərbərə də həmişə onunla gedirdi. Balaca olsa da, nəsildən gələn genetik xasiyyət özünü göstərirdi. Verdiyi sözü tutmağa çalışır, yalan danışmır, dərslərini yaxşı oxuyurdu, çalışırdı ki, ona aid hər işi özü eləsin.

Hətta bəzən kürəyini sürtmək istəyən anasını hamama buraxmırdı. Haqsızlığa dözmədiyi, söz götürmədiyi üçün bəzən dalaşırdı və buna görə Moskvada oxuduğu məktəbdəki yaşıdlarının əksəriyyəti ondan çəkinirdi. Bu dəcəl azərbaycanlı balası ilə dostluq eləmək onlar üçün ən yaxşı seçim idi.

On il idi ki, ailəlikcə Moskvada yaşayırdılar. Qadın balaca oğlu ilə bir həftə olardı ki, Bakıya gəlmişdi. Həyat yoldaşının şirkətdə vacib işləri çıxdığından vətənə dönüşü bir qədər ləngimişdi.

O, qapının ehtiyat açarlarından birini oğluna verib dilləndi:

– Sən həyətdə oyna, mən bir yerə tez dəyib gələcəm. Mən qayıdana qədər evə gəlmək istəsən, qapını açarsan. Ehtiyatlı ol, açarı itirmə. Oynayanda da maşın yoluna çıxma.

– Hara gedirsən ki, ana? – Uşaq qaşlarını çatıb soruşdu. Sanki yaraşıqlı anasını qısqanaraq ona göz-qulaq olmaq istəyirdi. Oğlunun üzündəki düşündürücü ifadə qadına bir nəfəri xatırlatdı.

– Rəfiqəmlə görüşəcəm. Get, ağıllı balam, uşaqlar səni gözləyir. Nəsə lazım olsa, mənə zəng edərsən. – Qadın gülümsəyərək oğlunun toppuş yanağından öpüb yola saldı. Qaçaraq evdən çıxan uşağın ardınca bir xeyli dayanıb baxdı. Oğlu onun xoşbəxtliyi idi...

Qapını örtüb yataq otağına qayıtdı. Şkafı açıb asılmış paltarlarına göz gəzdirdi. Qara rəngli kofta

və ona uyğun uzun yubkasını götürdü. Yubka əyninə bir az dar gəlsə də, geyindi. Son vaxtlar hamiləliyi geyimində əməlli-başlı problemlər yaradırdı. Moskvadakı gen-bol paltarlarından bəzilərini bura gətirmədiyinə çox təəssüflənirdi. Yeni geyimlər üçün buradakı mağazalara baş çəkməyə məcbur olacaqdı. Bakıda saysız-hesabsız ticarət mərkəzləri açılsa da, Türkiyə, İtaliya, Çin və digər ölkələrdən gətirilən paltarların qiyməti heç də Rusiyadakı qiymətlərdən geri qalmırdı.

Son vaxtlar Bakı dünya meqapolisləri kimi turistlərin axın elədiyi şəhərlərdən birinə çevrilmişdi. Bu səbəbdən də brend mağazalardakı malların qiymətləri qalxmışdı. Paytaxta gələn varlı ərəblər bu mağazalarda sağa-sola pul xərcləməkdən zövq alırdılar. Qiymətlərin bahalığı yalnız sadə azərbaycanlıların ürəyincə deyildi.

Amma şükür ki, onların maddi durumu pis deyildi.

İldə bir neçə dəfə Bakıya gəlib-gedirdilər. Əri neçə illər idi ki, Moskvada bir neçə xəstəxanaya rəhbərlik edirdi. Azərbaycanlı iş adamına məxsus bu xəstəxanalar şəbəkəsi Rusiyanın ən imkanlı adamlarına tibbi xidmət göstərirdi. Müasir tibbi avadanlıqlar, xəstələrin müayinə və müalicəsinə çoxsaylı peşəkar həkimlərin cəlb edilməsi sayəsində bu şəbəkə səhiyyə sektorunda ciddi nüfuz qazanmışdı.